*«Səməd Vurğundan danışanda onu cismən sağ bilirəm, axı həqiqi şairlər heç vaxt ölmürlər, onlar yalnız həyatdan yaddaşlara köçürlər».*

**Boris OLEYNİK,**
**məşhur Ukrayna şairi.**

M.Füzuli adına Əlyazmalar İnstitutunun Səməd Vurğun Fondunda (F.№28, siy-1, sax.vah №375) bir şeir mühafizə olunur. Onu Daş Salahlı kəndindən Yusif Aşırlı adlı müəllif 1955-ci il oktyabrın 8-də şairə göndərib.

O, yazır: «Əziz və möhtərəm Səməd Vurğun, məlumunuz olsun ki, Sizinlə tanış olub məktublaşmaq fikrindəyəm. Əgər bu xahişimi bəyənsəniz Sizə bir neçə şeir də göndərərəm. Onu da bilin ki, bu il Universitetin Şərqşünaslıq fakültəsindən kəsilib kəndə qayıtmışam. Burda qalıb kolxozda işləmək istəmirəm. Rayonda məni pasport qeydiyyatından çıxartmırlar. Mən qeydiyyatdan çıxanda Amerikaya ya da, İngiltərəyə qaçmayacağam ki,.. Mən doğma Qazağımdan, anam Daş Salahlıdan heç yerə gedən deyiləm. Mənə rayon rəhbərləri deyirlər ki, get, kolxozda işlə, kəndlidən oxuyub ali təhsil alan olmaz. Mən isə Bakıya gedib işləmək, redaksiyalarla, Yazıçılar İttifaqı ilə əlaqə saxlayıb onlardan göstəriş almaq istəyirəm.

Onu da biləsiniz ki, kənddə vəziyyətim olduqca ağırdır. Atam müharibədə həlak olub, anam xəstədir, böyük qardaşım əsgəri xidmətdədir. Mən isə oxuyub ali təhsil almaq arzusu ilə yaşayıram. Ona görə də bugünkü güzəranımı şeirimlə sizə bildirirəm».



# ÇATMAYAN MƏKTUB

## *(Yusif Aşırlının məktubu Səməd Vurğuna niyə çatmadı?)*



**Yusif Əhmədoğlu Yusifov (Aşırlı)**

**YOXDUR**

*Səməd Vurğuna*

***Bir şair xəyallı baxtı qarayam,***
***Dar gündə dadıma çatanım yoxdur.***
***Ağıllı bir qulam, yaxşı sərrafa,***
***Aparıb bazarda satanım yoxdur.***

***Ağlaram, ağlaram bağrım dələrəm,***
***Göz yaşımı yağış kimi ələrəm.***
***Nə iş olsa öhdəsindən gələrəm,***
***İnsan cərgəsinə qatanım yoxdur.***

***Əsiri olmuşam, bir məhəbbətin***
***Barını dərməmiş çətindir, çətin.***
***Sənin bu dünyada çoxdu hörmətin***
***Mənim də əlimdən tutanım yoxdur.***

***Bəzən yerdən-göydən üzülür əlim,***
***Kənara atacaq məni gözəlim.***
***Bəzən də göylərə qalxır əməlim***
***Eşqimi yuxarı atanım yoxdur.***

***Oxuyub hər şeydən olmuşam halı***
***İnsanı alçaldar dünyanın malı.***
***Yusif Aşırlının Məcnun xəyalı***
***Deyir köməyimə çatanım yoxdur.***

***8.XI.1955***

Həmin günlərdə əziz şairimiz Səməd Vurğunun vəziyyəti necə idi?

1955-ci ildə Səməd Vurğun oktyabrın 28-də Pekin şəhərinə çatıb. Ondan bir həftə əvvəl Moskvada olub. Noyabrın 11-nə kimi Çində qalıb müalicə olunub. Vyetnama ezam olunan Səməd Vurğunun təyyarədə birdən-birə qızdırması qalxdığına görə yerə endirilib, Pekində dayanıb və üç həftə Sovet səfirliyinin, «Qırmızı Xaç» xəstəxanasında müalicə olunub. Orada məlum olub ki, şairdə xərçəng xəstəliyi var. Vyetnamın iqlimi rütubətli olduğuna görə həkimlər oraya getməyi məsləhət bilməyiblər.

Səkkiz gün qatarla yol gələrək Moskvaya çatıb. Bir həftə sonra Bakıya qayıdan Səməd Vurğun - burada, dekabr ayının axırına kimi mərkəzi xəstəxanada müalicə olunub. Sonra yenidən Moskvaya - Kreml xəstəxanasına aparılıb, orada müalicə olunub. Məşhur cərrah, professor Petrovsk ionu təşrih edib. Artıq gec olduğu müəyyən olunub. Xərçəngin şaxələri ürəyə, ciyərə və nəfəs borusuna çatmışdı.

1956-cı il fevralın əvvəllərində, guya Vətən havası lazımdır adıyla Səməd Vurğun Bakıya qaytarıldı və evdə müalicə olundu.

1956-cı il mayın 27-də axşam saat səkkizin yarısında onun böyük qəlbi dayandı, şahin gözləri, qartal baxışları əbədi olaraq yumuldu. May ayının 30-da gündüz saat 2-də Fəxri Xiyabanda dəfn olundu.

Məşhur rus şairi Konstantin Simonov dostunun ölümünü eşidəndə kədərlə yazdı: ***«Səməd Vurğun vulkan idi, vulkan isə çox yaşaya bilmir».***

Məhz buna görə də yetim Daş Salahlı Yusif Aşırlıya nə kömək edə bilib, nə də şeirinə cavab yazıb. Şübhəsiz ki, bu qəmli, kədərli məktub-şeiri Səməd Vurğuna bildirməyiblər. Yoxsa belə istedadlı və köməksiz gənc şairə qayğı əlini uzadardı. Necə ki, neçə-neçə gənc istedada qayğı göstərmişdi. Belə ki, vaxtilə ədəbi aləmdə yenicə addımlamağa başlayan Nəbi Xəzriyə, Bəxtiyar Vahabzadəyə, İbrahim Kəbirliyə, Adil Babayevə, Əliağa Kürçaylıya, Emil Yaquba və bir çoxlarına dayaq olmuşdur.



***Şəmistan NƏZİRLİ***
***6 yanvar 2019-cu il***